QANUN № 09 (383), 2026, s. 60-68

Nağıyeva Nəzrin Elçin qızı,
Milli Aviasiya Akademiyasının Hüquq kafedrasının müəllimi
Ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Həzi Aslanov küçəsi, 56
E-mail: nazrin.elcingizi@mail.ru
ORCID ID: 0009-0000-5146-2350

UOT 342.8
DOI: https://doi.org/10.30546/2218-9130.009.2026.138

REFERENDUM İNSTİTUTUNUN KONSTİTUSİYA-HÜQUQİ MAHİYYƏTİ VƏ PRİNSİPLƏRİ

***Açar sözlər**: referendum, konstitusiya hüququ, demokratik idarəetmə, xalq suverenliyi, səsvermə prinsipləri, legitimlik.*

***Ключевые слова**: референдум, конституционное право, демократическое управление, народный суверенитет, принципы голосования, легитимность.*

***Keywords:** referendum, constitutional law, democratic governance, popular sovereignty, voting principles, legitimacy.*

I. GİRİŞ

Xalq hakimiyyətinin həyata keçirilməsinin müasir konstitusion modellərində birbaşa demokratiya institutları nümayəndəli demokratiyanı tamamlayan hüquqi mexanizmlər kimi çıxış edir. Bu institutlar sırasında referendum xüsusi yer tutur. Referendum vasitəsilə xalq dövlət hakimiyyətinin formalaşdırılmasında nümayəndə seçməkdən fərqli olaraq, konkret hüquqi və ya siyasi əhəmiyyətli məsələ üzrə öz iradəsini birbaşa ifadə edir. Buna görə referendumun hüquqi təbiəti yalnız səsvermə proseduru ilə deyil, xalq suverenliyi, konstitusion hakimiyyət bölgüsü, hüquqi dövlət və demokratik legitimlik prinsipləri ilə qarşılıqlı əlaqədə araşdırılmalıdır.

Azərbaycan Respublikasında xalq hakimiyyətinin mənbəyi Azərbaycan xalqıdır və xalq öz suveren hüququnu bilavasitə referendum, habelə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir. Konstitusiyanın 3-cü maddəsi referendumun predmetini həm ümumi, həm də xüsusi qaydada müəyyən edir: xalq hüquqları və mənafeləri ilə bağlı məsələləri referendumla həll edə bilər, lakin Konstitusiyanın qəbul edilməsi və ona dəyişikliklər edilməsi, eləcə də dövlət sərhədlərinin dəyişdirilməsi yalnız referendumla həll edilə bilən məsələlər sırasındadır; eyni zamanda vergilər və dövlət büdcəsi, amnistiya və əfv etmə, habelə müəyyən vəzifəli şəxslərin seçilməsi, təyin edilməsi və ya təsdiqi referendum predmeti ola bilməz [1].

Məqalənin məqsədi referendum anlayışını ümumi təsvir etməklə kifayətlənməyərək, onun Azərbaycan Respublikasının konstitusiya-hüquqi sistemindəki spesifik yerini müəyyənləşdirməkdir. Bu məqsədlə referendumun hüquqi təbiəti, predmet və funksiyaları, əsas prinsipləri, seçkidən fərqli xüsusiyyətləri və müqayisəli hüquqi yanaşmalar ardıcıl şəkildə təhlil edilir.

II. REFERENDUMUN KONSTİTUSİON-HÜQUQİ ANLAYIŞI

Referendum demokratik dövlətin əsas institutlarından biri kimi xalqın siyasi iradəsinin birbaşa ifadə formasıdır. Onun əsas fərqləndirici xüsusiyyəti qərarın nümayəndə vasitəsilə deyil, səsverməyə çıxarılan məsələ üzrə vətəndaşların

birbaşa iradəsi əsasında qəbul edilməsidir. Bu mənada referendum seçkidən fərqlənir: seçkidə siyasi iradə şəxslərin müəyyən vəzifələrə seçilməsi və ya siyasi nümayəndəliyin formalaşdırılması istiqamətində ifadə olunur, referendumda isə iradə konkret məsələ üzrə "lehinə" və ya "əleyhinə" səsvermə formasında meydana çıxır.

Azərbaycan Respublikasında referendumun keçirilməsi Azərbaycan Respublikasının Konstitusiyası və Seçki Məcəlləsi ilə tənzimlənir. Bu institut vasitəsilə xalq mühüm konstitusiya dəyişiklikləri, qanunvericilik təşəbbüsləri və dövlət idarəçiliyi ilə bağlı qərarların qəbulunda iştirak edir.

Azərbaycan konstitusion modelində referendumun hüquqi təbiətinin müəyyən edilməsində Konstitusiyanın 2-ci və 3-cü maddələri xüsusi əhəmiyyət daşıyır. Konstitusiyanın 2-ci maddəsi referendumu xalqın suveren hüququnun bilavasitə həyata keçirilməsi formalarından biri kimi təsbit edir. Konstitusiyanın 3-cü maddəsi isə referendumun predmetini müəyyən etməklə xalq iradəsinin bilavasitə ifadəsini konstitusion hüquqi çərçivəyə daxil edir [1]. Beləliklə, referendum nə hüquqi baxımdan məhdudiyyətsiz xalq səsverməsi, nə də dövlət hakimiyyətinin digər orqanlarının səlahiyyətlərini ümumi şəkildə əvəz edən mexanizmdir.

III. REFERENDUMUN PREDMETİ VƏ AZƏRBAYCAN MODELİNİN SPESİFİKASI

Azərbaycan Respublikasının Konstitusiyası referendum predmetinə dair üç kateqoriyalı hüquqi rejim müəyyən edir. Birinci kateqoriyaya xalqın hüquq və mənafeləri ilə bağlı referendumla həll edilə bilən məsələlər daxildir. İkinci kateqoriya yalnız referendumla həll edilə bilən məsələlərdir. Üçüncü kateqoriya isə referendum keçirilməsinin yolverilməz olduğu məsələlərdən ibarətdir [1]. Bu təsnifat referendum institutunun Azərbaycan modelində sərbəst və qeyri-məhdud siyasi alət olmadığını, konstitusion səlahiyyət bölgüsü və predmet məhdudiyyətləri çərçivəsində fəaliyyət göstərdiyini göstərir.

Xüsusilə qeyd edilməlidir ki, referendumun qanunvericilik funksiyası onun istənilən qanunun qəbulunun universal vasitəsi olması anlamına gəlmir. Azərbaycan Respublikasının Konstitusiyasında referendumun predmetinə dair xüsusi çərçivə müəyyən edildiyindən, qanunun qəbulunun və ya dəyişdirilməsinin referendum predmeti olub-olmaması ayrıca konstitusion və qanunvericilik əsasları əsasında qiymətləndirilməlidir. Buna görə "referendum yeni qanunların qəbul edilməsi üçün ümumi vasitədir" yanaşması Azərbaycan hüququ üçün həddən artıq genişdir.

Azərbaycan modelinin digər xüsusiyyəti Konstitusiyaya dəyişikliklərin referendumla bağlı xüsusi prosedurla həyata keçirilməsidir. Konstitusiyanın 153-cü maddəsinə əsasən, Konstitusiyanın mətnində dəyişikliklər edilməsi barədə təklif Milli Məclis və ya Prezident tərəfindən verildikdə, təklif olunan dəyişikliklərə dair əvvəlcədən Konstitusiya Məhkəməsinin rəyi alınmalıdır. Seçki Məcəlləsinin 119-cu maddəsi də bu konstitusion tələbin referendum prosedurundakı yerini təsbit edir [2]. Bu mexanizm referendumun yalnız siyasi iradənin ifadəsi deyil, həm də konstitusion nəzarət elementləri ilə təmin edilmiş hüquqi proses olduğunu göstərir.

Seçki Məcəlləsi referendumun hazırlanması və keçirilməsində referendum komissiyalarının rolunu müəyyən edir. Referendum orqanlarının müstəqilliyi, vətəndaşların seçki hüquqlarının həyata keçirilməsinin və müdafiəsinin təmin edilməsi, səsvermə nəticələrinin müəyyənləşdirilməsi referendumun legitimliyinin prosedur əsaslarını təşkil edir [2].

IV. REFERENDUMUN MƏQSƏDİ VƏ FUNKSİYALARI

Referendumun keçirilməsinin məqsədi vətəndaşların fikir birliyi əsasında dövlət və ictimai həyatın ən mühüm məsələləri üzrə qərarların

qəbul edilməsidir. Bu məqsədlə referendum aşağıdakı vəzifələri həll edir:

1. Siyasi qərarların legitimləşdirilməsi. Referendumlar əhaliyə ictimai həyatın mühüm məsələləri üzrə qərarların qəbulunda birbaşa iştirak imkanı yaradır. Referendumda səsvermə qəbul olunmuş qərarların qanuniliyini və legitimliyini təsdiqləməyə xidmət edir;

2. Yeni qanunların qəbul edilməsi və ya mövcud qanunlara dəyişikliklərin edilməsi. Referendumlar yeni qanunların qəbul olunması və ya qüvvədə olan qanunlara dəyişikliklərin edilməsi üçün vasitə kimi istifadə oluna bilər. Vətəndaşlar təklif olunan dəyişikliklər barədə fikirlərini ifadə edə və onların qəbul edilməsi və ya rədd olunması barədə yekun qərar verə bilərlər;

3. Konstitusiya dəyişikliklərinin qəbul edilməsi. Referendumlar dövlətin əsas qanununa dəyişikliklərin edilməsi məqsədilə keçirilə bilər. Bu, əhaliyə dövlətin əsas prinsiplərini və dəyərlərini müəyyənləşdirmək, həmçinin siyasi sistemin formalaşmasında iştirak etmək imkanı verir;

4. Mübahisəli hüquqi məsələlərin həlli. Referendumlar cəmiyyətdə yaranmış mübahisəli məsələlərin və ya ziddiyyətlərin həlli üçün istifadə oluna bilər. Səsvermə konsensusun əldə edilməsi və ya mürəkkəb məsələlər üzrə əksəriyyətin mövqeyinin müəyyənləşdirilməsi vasitəsi kimi çıxış edir;

5. Xalqın siyasi iradəsinin təsdiqi. Referendumlar xalqın siyasi iradəsini təsdiqləmək və mühüm məsələlər üzrə ictimai rəyi müəyyənləşdirmək üçün bir vasitədir. Referendumun nəticələri siyasi liderlərin qərarvermə prosesinə əhəmiyyətli təsir göstərə və sonrakı siyasi və sosial dəyişikliklərə səbəb ola bilər.

Referendumun məqsədləri və hüquqi təbiətini nəzərə alaraq, bu konstitusiya-hüquqi institut üçün xarakterik olan əsas funksiyaları müəyyənləşdirmək mümkündür:

1. məsləhətverici (konsultativ) funksiya;
2. tənzimləyici (requlyativ) funksiya;
3. qanunvericilik funksiyası;
4. nəzarət funksiyası.

Məsləhətverici funksiya ondan ibarətdir ki, vətəndaşlar dövlət və ictimai əhəmiyyət kəsb edən müəyyən məsələlər üzrə öz fikirlərini ifadə edə və mövcud hakimiyyətə təkliflər verə bilərlər. Referendumun nəticələri dövlət siyasətinin və qanunvericiliyin formalaşdırılmasında məsləhət xarakterli məlumat kimi istifadə oluna bilər, lakin əksəriyyətin qəbul etdiyi qərarın icrası məcburi xarakter daşımır.

Tənzimləyici funksiya referendumun təyin edilməsi, hazırlanması və keçirilməsi ilə bağlı ictimai münasibətlərin tənzimlənməsini, həmçinin vətəndaşların nümayəndəli idarəetmə və xalq suverenliyi prinsiplərinə əsaslanan ictimai idarəetmə sistemində iştirakını nəzərdə tutur.

Qanunvericilik funksiyası vətəndaşlara qüvvədə olan qanunvericiliyin referendum haqqında tələblərini nəzərə almaqla normativ-hüquqi aktların qəbulunda və ya dəyişdirilməsində birbaşa iştirak imkanı verir. Referendum demokratik qərarların qəbul edilməsi və qanunvericiliyin legitimləşdirilməsi üçün mühüm vasitə kimi çıxış edir.

Nəzarət funksiyası isə vətəndaşlara qanuni şəkildə seçilmiş hakimiyyətin fəaliyyətinə nəzarət etmək və qəbul edilmiş qərarlarla razı olmadıqlarını ifadə etmək imkanı yaradır. Bu funksiya hakimiyyət nümayəndələrinin qeyri-populyar, ədalətsiz və ya qanunsuz hərəkətlərdən çəkinməsinə şərait yaradır. Referendumun nəticələri əhalinin əksəriyyəti tərəfindən dəstəklənməyən qərarların yenidən nəzərdən keçirilməsi və ya ləğvi üçün əsas ola bilər.

Nəzarət funksiyası referendumun klassik hüquqi funksiyası kimi ehtiyatla qiymətləndirilməlidir. Referendum dövlət orqanlarının fəaliyyətinə birbaşa nəzarət və ya onların qərarlarının avtomatik ləğvi vasitəsi deyil. Bununla belə, müəyyən siyasi-hüquqi məsələlərin xalqın birbaşa müzakirəsinə və qərarına çıxarılması ha-

kimiyyətin hesabatlılığı və ictimai legitimliyi baxımından dolayı nəzarət effekti yarada bilər. Buna görə nəzarət funksiyasını referendumun əsas deyil, törəmə funksiyası kimi xarakterizə etmək daha əsaslıdır.

V. REFERENDUMUN PRİNSİPLƏRİ

Referendum prinsipləri xalqın iradəsinin azad, bərabər və hüquqi baxımdan etibarlı ifadəsini təmin edən əsas qaydalardır. Azərbaycan Respublikasında referendum və seçki hüququnun bir sıra ümumi prinsipləri mövcuddur, lakin referendumun predmet və prosedur xüsusiyyətləri bu prinsiplərə xüsusi məzmun verir.

Referendumun fəaliyyət prinsipləri Azərbaycan Respublikasının Konstitusiyasında, eləcə də Azərbaycan Respublikasının Seçki Məcəlləsində öz təsbitini tapmışdır. Belə ki, Konstitusiyanın 3-cü maddəsində referendumla həll edilə bilən məsələlərin dairəsi müəyyənləşdirilmiş və qeyd edilmişdir ki, Azərbaycan xalqı öz hüquqları və mənafeləri ilə bağlı olan hər bir məsələni referendumla həll edə bilər. Yalnız referendumla həll edilə bilən məsələlər isə aşağıdakılardır: a) Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi və ona dəyişikliklər edilməsi; b) Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsi. Eyni zamanda göstərilir ki, vergilər və dövlət büdcəsi, amnistiya və əfv etmə, seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi müvafiq olaraq qanunvericilik və (və ya) icra hakimiyyəti orqanlarının səlahiyyətlərinə aid edilmiş vəzifəli şəxslərin seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi kimi məsələlər referenduma çıxarıla bilməz [1].

Seçki Məcəlləsinin 2-ci maddəsinə görə Azərbaycan Respublikasının vətəndaşları seçkilərdə və referendumda ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə yolu ilə iştirak edirlər [2]. Bu prinsiplər təkcə referendumun təyin edilməsi və keçirilməsi məsələlərinə deyil, həmçinin seçki prosedurlarının təhlilinə də tətbiq oluna bilər. Bununla yanaşı, referendum yalnız ona xas olan mühüm prinsiplərlə fərqlənir.

Beləliklə, referendum haqqında qanunvericiliyin müddəalarının təhlili əsasında aşağıdakı referendumun tənzimlənməsi prinsiplərini müəyyənləşdirmək mümkündür:

1. referendumun keçirilməsinin qanuniliyi;
2. vətəndaşların referenduma ümumi, bərabər və birbaşa çıxış hüququ;
3. referendumda şəxsi (fərdi) səsvermə;
4. referendumda səsvermənin gizliliyi;
5. referendumda səsvermənin könüllülük prinsipi əsasında aparılması;
6. referenduma çıxarılan məsələ üzrə birbaşa səsvermə;
7. referendumun təşkil və keçirilməsində aşkarlıq (şəffaflıq).

İ.V. Qrankinin fikrincə, qeyd olunan prinsiplərin bəziləri onların praktikada tətbiqinin xüsusiyyətlərini nəzərə almaqla daha dəqiq konkretləşdirilməlidir [4].

Qanunilik prinsipi hüququn bütün sahələrində tətbiq edilir və həm referendum iştirakçılarını, həm də təşkilatçılarını əhatə edir. Bu prinsip demokratik hüquqi dövlətin ayrılmaz tərkib hissəsidir. Qanuniliyin təmin edilməsi cəmiyyətin və dövlətin vəziyyətini əks etdirir və həm keyfiyyət, həm də kəmiyyət baxımından qiymətləndirilə bilər. Qanunilik eyni zamanda tələb edir ki, dövlətin normativ göstərişləri əhalinin maraqlarını qorusun və onların iradəsini ifadə etsin. Lakin İ.V. Qrankinin sözlərinə görə, "qanunvericilik bazasının mövcudluğu qanunilik prinsipinin düzgün həyata keçirilməsi üçün kifayət deyil, eyni zamanda dövlət hakimiyyəti orqanlarının bu prinsipi əməl etməsi də mühüm əhəmiyyət daşıyır" [4].

Referendum iştirakçılarının bərabərliyi prinsipi isə vətəndaşların öz siyasi iradəsini vahid qaydada həyata keçirməsini nəzərdə tutur. Bərabərlik prinsipinin təminatı referendumda iştirakla bağlı bütün münasibətlərə eyni qanunverici-

liyin tətbiq edilməsi ilə təmin olunur. Bununla belə, D.M.Xudoleyin fikrincə, vətəndaşların referendumda iştirak hüququnun bərabərliyi onların siyasi hüquqsubyektliyə malik olması anlamına gəlmir, çünki bu, referendumda ümumi iştirak hüququ prinsipinin tərkib hissəsi olan xüsusi kateqoriyadır [11].

Vətəndaşların referenduma birbaşa çıxışı prinsipi onların referendum prosesində birbaşa iştirakını nəzərdə tutur. Bu prinsip göstərir ki, nümayəndəli demokratiyadan fərqli olaraq, əhali ilə dövlət arasında vasitəçi instansiyalar mövcud deyil. Referendum iştirakçısı referenduma çıxarılan konkret məsələ üzrə öz iradəsini birbaşa ifadə edir [12].

Referendumda şəxsi iştirak prinsipi isə vətəndaşın yalnız öz iradəsini ifadə etməsini nəzərdə tutur. Bu prinsipdən belə nəticə çıxır ki, məsələn, valideynlərin uşaqları adından səs verməsi və ya etibarnamə ilə səsvermə qadağandır. Bu tələblər, eyni zamanda, "ikiqat səsvermə" hallarının qarşısını alır. Qeyd edilməlidir ki, bu mənada referendumda şəxsi iştirak prinsipi yuxarıda nəzərdən keçirilmiş bərabərlik prinsipi ilə qarşılıqlı şəkildə əlaqəlidir.

Referendumda iştirakın könüllülük prinsipi vətəndaşların referenduma cəlb olunmasına məcbur edilməsinin yolverilməzliyini nəzərdə tutur. Referendumla bağlı qanunvericilik normaları əhalinin siyasi iradəsini azad şəkildə ifadə etməsi və bu iradənin referendum prosesi çərçivəsində sərbəst həyata keçirilməsi üçün hüquqi şərait yaradır. Burada qeyd olunmalıdır ki, referendum iştirakçılarına qarşı hədə, zorakılıq, aldatma və ya rüşvət kimi üsulların tətbiqinə yol verilmir, çünki bu cür hərəkətlər əhalinin referenduma çıxarılan ən mühüm məsələlər üzrə iradəsini sərbəst və könüllü şəkildə ifadə etməsinə birbaşa təsir göstərir.

Səsvermənin bir dəfə həyata keçirilməsi prinsipi referendum iştirakçısının yalnız bir dəfə səs verməsini nəzərdə tutur. Bu prinsip eyni şəxsin referendumun keçirildiyi digər məntəqədə təkrar səs verməsinin mümkünlüyünü istisna edir.

Referendumun ictimai (açıq) keçirilməsi prinsipi vətəndaşların müxtəlif məsələlər üzrə iradəsinin ifadəsində şəffaflıq və demokratiya prinsiplərinin təmin edilməsini şərtləndirir. Əhalinin referendumun keçirilməsi barədə kifayət qədər məlumatlandırılması bu institutun nüfuzunun və ona olan ictimai etimadın möhkəmlənməsinə xidmət edir.

Şəffaflıq və aşkarlıq prinsipi referendum prosesinin iştirakçılar üçün yoxlanıla bilən və etibarlı olmasını təmin edir. Buraya referendum məsələsi barədə seçicilərin məlumatlandırılması, komissiyaların fəaliyyəti, səslərin hesablanması və nəticələrin açıqlanması ilə bağlı prosedur təminatları daxildir. Venesiya Komissiyasının referendum üzrə yenilənmiş Yaxşı Təcrübə Məcəlləsi də referendumun demokratik legitimliyinin hüquqi çərçivə, bərabər imkanlar, şəffaflıq və seçicilərin məlumatlı qərar qəbul etməsi ilə bağlı olduğunu vurğulayır [12].

Qeyd etmək lazımdır ki, yuxarıda sadalanan prinsiplərin mahiyyəti və onların daxili məzmunu tədqiqatçılar tərəfindən qanunvericilik və hüquq tətbiqi praktikasına uyğun olaraq şərh olunur. Məsələn, V.V.Komarova qeyd edir ki, referendum prinsiplərinin izahı, ilk növbədə, onların normativ təsbitinin xüsusiyyətlərinə tabe olur [7]. Öz növbəsində, S.D.Knyazyev bu yanaşmanı ənənəvi hesab edir və bildirir ki, bu üsulla prinsiplərin şərhi seçki hüququna münasibətdə də həyata keçirilir [6].

Göründüyü kimi, referendum prinsipləri demokratik dövlət prinsiplərindən törəmiş hesab edilməlidir. Demokratik dövlət prinsipləri isə öz növbəsində, demokratik dəyərlərin həyata keçirilməsini referendum prinsiplərinin reallaşdırılması vasitəsilə konkretləşdirir. Referendum prinsiplərinin xüsusi xarakteri ondan ibarətdir ki, onlar seçki prosesində səsvermə mərhələsinə xas olan birbaşa və gizli səsvermə prinsiplərindən

fərqli olaraq, referendumun bütün mərhələlərində fəaliyyət göstərir.

V.A.Koçev bu barədə qeyd edir ki, "ümumilik və bərabərlik prinsipi yalnız referendumun birbaşa iştirakçısı olan vətəndaşların hüquqi statusunun tənzimlənməsinin əsasında deyil, həm də referendum münasibətlərinin digər subyektlərinin – ilk növbədə, referendumun təşkili və keçirilməsinə səlahiyyətli olan subyektlərin fəaliyyətinin əsasını təşkil edir" [8].

VI. REFERENDUMLARIN TƏSNİFATI VƏ MÜQAYİSƏLİ HÜQUQİ YANAŞMA

Bu məsələnin tədqiqi Azərbaycan Respublikasında referendumların həyata keçirilməsinin klassifikasiyasını müəyyənləşdirməyi zəruri edir. Konstitusiya hüququ doktrinasında referendumların müxtəlif meyarlara əsaslanan çoxsaylı təsnifatları mövcuddur.

E.V. Dzyadeviç qeyd edir ki, referendumun əsas təsnifat meyarı onun predmetini təşkil edən məsələnin xarakteridir. Bu meyara əsasən, referendumlar aşağıdakı növlərə bölünür:

1. imperativ (məcburi) və məsləhətverici (konsultativ);

2. təsdiqedici və rəddedici [5].

Öz növbəsində, K.V.Nefedov referendumun predmetinə görə digər növləri fərqləndirir:

Konstitusiya referendumu. Bu növ referendum dövlətin əsas qanununun qəbul edilməsi və ya mövcud konstitusiyaya dəyişikliklərin edilməsi zərurəti yarandıqda keçirilir. Tarixi nümunə kimi 12 noyabr 1995-ci ildə keçirilmiş referendum göstərilə bilər ki, onun nəticəsində Azərbaycan Respublikasının hazırda qüvvədə olan Konstitusiyası qəbul edilmişdir.

Qanunvericilik referendumu. Bu növ referendum qanunun qəbul edilməsi və ya dəyişdirilməsi məqsədilə keçirilə bilər. Məsələn, Rusiya Federasiyasında 2020-ci ildə keçirilmiş Rusiya Federasiyasının Konstitusiyasına dəyişikliklərin təsdiqi üzrə ümumrusiya səsverməsi bu növ referendumun nümunəsi kimi göstərilə bilər. Onun nəticəsində federal qanunvericiliyə dəyişikliklər edilmişdir;

Beynəlxalq-hüquqi referendum. Bu növ referendum dövlətin beynəlxalq müqavilə və ya təşkilatlara qoşulması və ya onlardan çıxması məsələsinin həlli zərurəti yarandıqda keçirilə bilər.

İnzibati referendum. Bu növ referendum yerli və ya regional səviyyədə hakimiyyət institutlarının formalaşdırılması, subyektlərin və ya inzibati-ərazi vahidlərinin sərhədlərinin müəyyən edilməsi və digər analoji məsələlərin həlli üçün keçirilə bilər. Bu növ referenduma misal olaraq, Rusiya Federasiyasında 2005-ci il 23 oktyabr tarixində Kamçatka vilayəti ilə Koryak muxtar dairəsinin birləşdirilməsi və 2006-cı il 16 iyul tarixində Pskov şəhərində yerli özünüidarə orqanlarının strukturunun müəyyənləşdirilməsi üzrə keçirilmiş referendumlar göstərilə bilər [9].

Referendumların konstitusiya, beynəlxalq və qanunvericilik növlərinə bölünməsi ilə bağlı oxşar mövqe E.V. Novikov tərəfindən də irəli sürülmüşdür [10].

Referendumların keçirilməsi üçün tələb olunan şəraitdən asılı olaraq, onlar iki əsas növə bölünür:

- məcburi (obliqator) referendumlar – qanunla müəyyən edilmiş zərurət nəticəsində keçirilir və dövlət səviyyəsində hər hansı mühüm qərarın qəbul edilməsinin vasitələrindən biri hesab olunur. Məsələn, Yaponiyada Konstitusiyaya düzəlişlər yalnız referendum vasitəsilə qəbul edilə bilər;
- fakultativ (ixtiyari) referendumlar isə qanunla müəyyən edilmiş subyektlərin təşəbbüsü əsasında keçirilir [3].

Referendum institutunun hüquqi modelləri müxtəlif dövlətlərdə eyni deyil. Doktrinada referendumlar hüquqi nəticələrinin məcburiliyi, predmetləri, keçirilməsinin məcburi və ya fakultativ olması və digər meyarlar üzrə təsnif edilir. Bu təsnifatlar referendumun vahid universal modelinin olmadığını göstərir.

Məcburi referendum modelində müəyyən konstitusion və ya digər mühüm məsələlərin həlli üçün referendumun keçirilməsi hüquqi tələb kimi müəyyən edilir. Fakultativ referendumda isə referendumun keçirilməsi qanunla səlahiyyət verilmiş subyektin təşəbbüsü ilə mümkün olur. Lakin bu fərqləndirmə konkret dövlətin konstitusion sistemi nəzərə alınmadan Azərbaycan modelinə birbaşa tətbiq edilə bilməz.

Azərbaycan Respublikasında referendumun predmetinə dair konstitusion məhdudiyyətlər onun digər dövlətlərdə mövcud olan daha geniş referendum modellərindən fərqləndiyini göstərir. Məsələn, müxtəlif dövlətlərdə qanunvericilik, ərazi, beynəlxalq inteqrasiya və konstitusiya məsələləri referendum predmetinə daxil edilə bilər. Azərbaycan hüququnda isə belə məsələlərin referendum predmeti olub-olmaması ilk növbədə Konstitusiyanın 3-cü maddəsində müəyyən edilən çərçivə əsasında qiymətləndirilməlidir.

Müqayisəli yanaşmanın əsas elmi əhəmiyyəti ayrı-ayrı dövlətlərin təcrübəsini sadalamaqda deyil, referendumun demokratik legitimliyini təmin edən ümumi hüquqi meyarları müəyyənləşdirməkdədir. Bu baxımdan Venesiya Komissiyasının 2022-ci ildə qəbul etdiyi Yenilənmiş Referendumlar üzrə Yaxşı Təcrübə Məcəlləsi beynəlxalq müqayisə üçün mühüm metodoloji çərçivə yaradır [12]. Azərbaycan modelinin qiymətləndirilməsində bu sənəddən normativ məcburiyyət yaradan akt kimi deyil, müqayisəli-konstitusiya hüququnun yumşaq hüquq mənbəyi kimi istifadə edilməsi məqsədəuyğundur.

VII. NƏTİCƏ

Aparılmış araşdırma göstərir ki, referendum Azərbaycan Respublikasının konstitusiya-hüquq sistemində xalq suverenliyinin bilavasitə həyata keçirilməsi forması olmaqla, nümayəndəli demokratiyanı tamamlayan xüsusi hüquqi institutdur. Onun əsas fərqləndirici xüsusiyyəti vətəndaşın konkret məsələ üzrə qərarvermədə nümayəndə vasitəsilə deyil, birbaşa iştirak etməsidir.

Azərbaycan referendum modelinin əsas xüsusiyyəti referendum predmetinin Konstitusiya ilə müəyyən edilmiş çərçivəyə tabe olmasıdır. Konstitusiyanın 3-cü maddəsi bir tərəfdən xalqın hüquq və mənafeləri ilə bağlı məsələlərin referendum yolu ilə həllinə imkan verir, digər tərəfdən yalnız referendumla həll edilə bilən və referendum keçirilməsi qadağan olunan məsələləri fərqləndirir. Bu səbəbdən referendumun hüquqi mahiyyəti yalnız xalq iradəsinin ifadəsi kimi deyil, konstitusion səlahiyyət bölgüsü və predmet məhdudiyyətləri ilə birlikdə qiymətləndirilməlidir.

Tədqiqatın nəticələrinə əsasən referendumun funksiyalarının məsləhətverici, tənzimləyici, qanunvericilik və nəzarət kimi sadə siyahı şəklində təqdim edilməsi əvəzinə, birbaşa iradə ifadəetmə, legitimləşdirici, normativ-konstitusion və tənzimləyici funksiyaların əsas, nəzarət funksiyasının isə törəmə xarakter daşıdığı qəbul edilə bilər. Belə yanaşma referendumun hüquqi nəticələri ilə onun siyasi təsirini bir-birindən fərqləndirməyə imkan verir.

Azərbaycan Respublikasında referendum institutunun daha səmərəli elmi və praktiki qiymətləndirilməsi üçün üç istiqamət xüsusi əhəmiyyət daşıyır. Birincisi, referendum predmetinin Konstitusiyanın 3-cü maddəsində müəyyən edilmiş sərhədləri ilə referendum prosedurunun qanunvericilik mexanizmləri sistemli şəkildə əlaqələndirilməlidir. İkincisi, referendum məsələsinin formulə edilməsi və seçicinin məlumatlı qərar qəbul etməsi ilə bağlı təminatlar hüquqi və institusional baxımdan xüsusi diqqətdə saxlanılmalıdır. Üçüncüsü, referendumun legitimliyi yalnız nəticənin səs çoxluğu ilə qəbul edilməsi ilə deyil, bütün prosesin qanunilik, bərabərlik, şəffaflıq, azad iradə və prosedur etibarlılığı meyarları əsasında qiymətləndirilməlidir.

Beləliklə, referendum institutu Azərbaycan Respublikasında xalq hakimiyyətinin reallaşdırılmasının mühüm konstitusiya-hüquqi mexanizmi olmaqla, onun səmərəli fəaliyyəti yalnız birbaşa səsvermənin keçirilməsi ilə deyil, referendumun predmetinə dair konstitusion məhdudiyyətlərə və demokratik prosedur təminatlarına riayət olunması ilə şərtlənir.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2016.

2. Azərbaycan Respublikasının Seçki Məcəlləsi. Bakı, 2024.

3. Безруков А.В. Конституционное право России: учебное пособие. 3-е изд., перераб. и доп. Москва: Юстицинформ, 2015. 128 с.

4. Гранин И.В. Законодательное обеспечение прямой демократии на муниципальном уровне // Конституционное и муниципальное право. 2012. № 7. С. 45.

5. Дзядевич Е.В. Референдум как форма прямого правотворческого участия населения // Крымский академический вестник. 2021. № 17. С. 275.

6. Князев С.Д. Принципы российского избирательного права // Юриспруденция. 1998. № 2. С. 24.

7. Комарова В.В. Референдумный процесс в Российской Федерации: монография. Москва: Полиграфист, 2004. 215 с.

8. Кочев В.А. Конституционно-правовая природа института референдума // Вестник Пермского университета. Юридические науки. 2019. № 45. С. 408.

9. Нефедов К.В. Референдум как форма непосредственного осуществления народовластия: понятие, виды // Вестник научной мысли. 2021. № 3. С. 110.

10. Новиков Е.В. К вопросу о местном референдуме в Российской Федерации // Эффективность государственного и муниципального управления: современные вызовы и проблемы: материалы межвузовской студенческой научно-практической конференции. 2021. С. 42.

11. Худолей Д.М. Гарантии принципа равного избирательного права: монография. Москва: Спутник, 2007. 16 с.

12. Чертков В.Е. К вопросу об основных принципах референдума в России // Актуальные вопросы конституционного и международного права: материалы IV ежегодной конференции. Ставрополь, 2020. С. 232.

13. Venice Commission. Revised Code of Good Practice on Referendums, CDL-AD(2022)015. 2022.

Нагыева Назрин Эльчин гызы,
преподаватель кафедры права Национальной академии авиации

КОНСТИТУЦИОННО-ПРАВОВАЯ СУЩНОСТЬ И ПРИНЦИПЫ ИНСТИТУТА РЕФЕРЕНДУМА

РЕЗЮМЕ

В статье институт референдума исследуется с конституционно-правовой точки зрения как форма непосредственного осуществления народного суверенитета. Цель исследования состоит в определении правовой природы референдума, его предмета и пределов применения в Азербайджанской Республике, основных принципов, функций и отличительных особенностей от других форм прямой демократии. На основе статей 2 и 3 Конституции Азербайджанской Республики, положений Избирательного кодекса и международных правовых подходов обосновывается, что референдум является не только формой выражения политической воли, но и особой формой принятия юридических решений в конституционных и процедурных рамках. Научная новизна состоит в систематизации предмета референдума в азербайджанской модели по трем правовым категориям, разграничении его функций на основные и производную контрольную функцию, а также в обосновании оценки легитимности

не только по результату голосования, но и по критериям законности, равенства, прозрачности и свободного волеизъявления. В статье делается вывод о том, что референдум является конституционно-правовым институтом, дополняющим, а не заменяющим представительную демократию.

Naghiyeva Nazrin Elchin,
Lecturer at the Law department of National Aviation Academy

THE CONSTITUTIONAL AND LEGAL NATURE AND PRINCIPLES OF THE INSTITUTION OF REFERENDUM

SUMMARY

The article examines the institution of the referendum from a constitutional and legal perspective as a form of the direct exercise of popular sovereignty. The purpose of the study is to determine the legal nature of the referendum, its subject matter and limits of application in the Republic of Azerbaijan, its main principles and functions, and its distinguishing features from other forms of direct democracy. Based on Articles 2 and 3 of the Constitution of the Republic of Azerbaijan, the provisions of the Election Code and international legal approaches, the study substantiates that a referendum is not merely an expression of political will, but a special form of legal decision-making carried out within constitutional and procedural frameworks. The scientific novelty consists in systematizing the subject matter of referendums in the Azerbaijani model into three legal categories, distinguishing its functions into primary functions and a derivative control function, and substantiating that legitimacy should be assessed not only by the voting result but also by legality, equality, transparency and free expression of will. The article concludes that the referendum is a constitutional and legal institution that complements rather than replaces representative democracy.

Redaksiyaya daxilolma tarixi: 15.09.2026
Təkrar işlənməyə göndərilmə tarixi: 25.09.2026
Çapa qəbul olunma tarixi: 26.09.2026